**16 oktyabr 2015-ci il tarixində Xətai rayonunda statistika işçilərinin peşə bayramı və ölkəmizdə rəsmi statistikanın yaradılmasının 95-ci ildönümü münasibətilə tədbir keçirildi.**



Tədbirdə idarə, müəssisə və təşkilatların, Bakı Şəhər Statistika İdarəsinin və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etdilər.

Tədbiri giriş sözü ilə açan Xətai Rayon Statistika Şöbəsinin rəisi Alim Süleymanov Azərbaycan statistikasının tarixi, bu günü və gələcək inkişaf perespektivləri, sosial-iqtisadi siyasətin formalaşdırılmasında rolu ilə bağlı məlumatları ictimayətə dolğun şəkildə çatdıraraq, 2015-ci ilin 9 ayında idarənin fəaliyyətinə dair iştirakçılara geniş məlumat verdi: “Azərbaycan statistikləri üçün bu günün əhəmiyyətli olması həm də ondan ibarətdir ki, 2015-ci ildə Azərbaycanda statistikanın təşkilindən 169 il keçir və rəsmi statistikanın 95 yaşı tamam olur. Ulu öndər Heydər Əliyevin uğurlu siyasəti, dövlətin və hökümətin yüksək qayğısı sayəsində statistika sahəsində yüksək naliyyətlər əldə olunmuşdur. Ulu öndər Heydər Əiyevin bu fikirləri dövlət statistika orqanlarının fəaliyyətinə verilən ən yüksək qiymətdir: “Statistika Komitəsi əsas dövlət orqanlarından biridir”, “Bizim Dövlət Statistika Komitəsi var, çox düzgün statistika aparır.” Bu gün prezident İlham Əliyevin müvafiq sərəncamları ilə statistikanın inkişafına xidmət edən Dövlət Proqramları təsdiq olunub və uğurla icra edilir.”





Xətai Rayon Statistika Şöbəsinin baş məsləhətçiləri Sevda Xalıqova və Elnur Rüstəmov onlayn sistem və ötən müddət ərzində Xərai rayon üzrə statistik məlumatları diqqətə çatdırdılar.Natiqlər Azərbaycanda rəsmi Statistikanın yaranmasının 95 illiyi münasibəti ilə həmkarlarını təbrik etdilər, fəaliyyətlərində müvəfəqiyyət arzuladılar.

Bakı Şəhər Statistika İdarəsinin rəis müavini Əhmədov Vəkilov və Əhmədli qəsəbə icra nümayəndəliyinin baş mühasibi Nemət İsfəndiyarov qeyd etdilər ki, Xətai Rayon Statistika Şöbəsinin əməkdaşları Dövlət Statistika Komitəsinin bütün əmr və qərarlarını həyata keçirtmək üçün var qüvvələri ilə çalışırlar. Natiqlər statistikanın bu gün əhalinin həyat səviyyəsinin yüksəldilməsində mühüm rolundan danışaraq 20 oktyabr – Dünya Statistika Günü münasibətilə statistika işçilərini təbrik etdilər.